# "Naxçıvan" Universitetində turizmin inkişafına həsr olunmuş "Açıq dərs"

Bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə müxtəlif dövlət orqanları qarşısında mühüm vəzifələr qoyulub. Qeyd olunub ki, muxtar respublikada digər sahələr kimi turizm sahibkarlığı da inkişaf etdirilməlidir. Özəl sektor bu sahədə xüsusilə təşəbbüskar olmalı, real təkliflər ortaya qoyulmalıdır. Turizmin inkişafı turistlərin təhlükəsizliyinin qorunması məsələsini də aktuallaşdırır. Bu sahədə də aidiyyəti dövlət orqanları fəaliyyətlərini gücləndirməli, onlar işin təşkilinə diqqəti artırmalıdır. Aidiyyəti dövlət orqanları turistlərin gediş-gəliş zamanı rəsmiləşdirmə qaydalarına düzgün riayət etməli, turistlərə heç bir maneə yaradılmamalıdır. Qarşıya qoyulan vəzifələrin icrası istiqamətində müxtəlif tədbirlər keçirilir. Bu istiqamətdə təşkil edilən tədbirlərin davamı olaraq "Naxçıvan" Universitetinin turizm və otelçilik kabinetində bir qrup tələbənin iştirakı ilə "açıq dərs" keçirilib.



"Açıq dərs"də universitetin Turizm informasiya mərkəzinin rəhbəri Şahnaz Məmmədova tələbələrə məlumat verərək bildirmişdir ki, Azərbaycanda turizmin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq ölkə turizminin əsaslı inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə turizmin inkişafına xüsusi diqqət yetirilməyə başlandı. XX əsrin 90-cı illərinin sonunda turizmin inkişaf meyilləri ölkədaxili qanunvericilik aktlarında öz əksini tapmışdır. Bu gün dünyanın bir çox ölkələrində aparıcı sahəyə çevrilən turizmin Azərbaycanda da sürətlə inkişaf etməsi hər kəsin gözü qarşısında cərəyan edir. Ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə turizmin inkişafı ilə bağlı görülən işlər, qəbul edilən dövlət proqramları deyilənləri bir daha təsdiq edir. Ş.Məmmədova onu da vurğulayıb ki, son illər muxtar respublikada turizmin inkişafı sahəsində görülən işlər öz bəhrəsini verir. Ötən dövrdə ümumi turizm infrastrukturunun yaradılması, kənd, müalicə, ziyarət, tranzit və digər turizm növlərində əldə edilən nailiyyətlər gələcək turizm mövsümlərində daha böyük uğurlara imza atılmasına stimul verəcək.

Tələbələrə otel və mehmanxanalara gələn qonaqları qarşılama və yolasalma zamanı göstərilən xidmətlər barədə də ətraflı məlumat verilmiş, onlara bu işlə bağlı əyani blanklar paylanmışdır.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

**Nuray ƏSGƏROVA**